# “Lütfi Zadə adına Bakı şəhəri məktəblilərarası I Məntiq Olimpiadası”nın təşkili və keçirilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdirinin əmri

Şagirdlərin məntiqi təfəkkür vərdişlərinin, düşüncə tərzi, diqqət, qavrama və nitq kimi vacib bacarıqlarının inkişafına əlverişli şərait yaratmaq, məntiqi biliklərinin artırılmasına təkan vermək təhsilin müasir məzmunu baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Aparılmış araşdırmalar nəticəsində ümumtəhsil müəssisələrinin V-VI sinif şagirdlərinin müxtəlif müsabiqə və bilik yarışlarına cəlbi səviyyəsinin aşağı olduğu müəyyən edilmişdir. Bu yaş qrupuna daxil olan şagirdlərin beynəlxalq və ölkədaxili olimpiada, müsabiqə, yarışlarda iştirak təcrübəsini artırmaq, istedadlı və elmə marağı olan şagirdləri vaxtında üzə çıxarmaq, onların meyil və bacarıqlarının daha da inkişaf etdirilməsi istiqamətində müvafiq iş aparılmasına zəmin yaradılmasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Bakı şəhəri ümumi təhsil müəssisələrinin V-VI sinif şagirdləri arasında 2016-cı ilin 30 aprel-26 may tarixlərində “Lütfi Zadə adına Bakı şəhəri məktəblilərarası I Məntiq Olimpiadası” keçirilsin.

2. Olimpiadanın keçirilmə qaydaları, təşkilat komitəsinin tərkibi təsdiq edilsin (əlavə olunur).

3. Bu sahədə uğurlu təcrübəsini nəzərə alaraq İstək liseyi ilə qarşılıqlı razılaşmaya əsasən “I Məntiq olimpiadası”nın keçirilməsi ilə əlaqədar bütün təşkilati və digər tədbirlər İstək liseyi ilə birlikdə həyata keçirilsin.

4. Təhsil müəssisələrinin rəhbərləri olimpiadanın keçirilmə qaydalarının tələblərinə uyğun olaraq olimpiadanın yerlərdə təşkili ilə əlaqədar lazımi işlər görsünlər.

5. Ümumi təhsil sektoru (A.Yusifov), İnkişaf layihələri sektoru (L.Şərəfxanova) və Məktəbdənkənar fəaliyyətin təşkili sektoru (A.Əzizov) olimpiadanın yüksək səviyyədə keçirilməsini təmin etsinlər.

6. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

7. Müdir müavini (N.Səfərova) olimpiadanın keçirilməsindən irəli gələn maliyyə məsələlərini həll etsin.

8. Təminat və təchizat sektoru (Ş.İsgəndərov) layihənin icrasından irəli gələn təchizat məsələlərini həll etsin.

9. İctimaiyyətlə əlaqələr sektoru (A.Tairquliyeva) əmrin icrası ilə əlaqədar keçirilən tədbirlərin kütləvi-informasiya vasitələri tərəfindən işıqlandırılmasını, İdarənin internet saytında yerləşdirilməsini təmin etsin;

10. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** İnkişaf layihələri sektorunun 2016-cı il üçün Fəaliyyət planı.

***Məhəbbət Vəliyeva***

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri***

***26 aprel 2016-cı il***

## “Lütfi Zadə adına Bakı şəhəri məktəblilərarası I Məntiq Olimpiadası”nın keçirilmə qaydaları